# Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasında nəzərdə tutulmuş milli koordinasiya mərkəzinin təyin edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2003-cü il 9 dekabr tarixli 554-IIQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasının 9-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasının 9-cu maddəsinə uyğun olaraq məlumatların mübadiləsi məqsədilə Azərbaycan Respublikası tərəfindən milli koordinasiya mərkəzi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən milli koordinasiya mərkəzinin təyin edilməsi barədə həmin Konvensiyanın Katibliyinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyul 2004-cü il
№ 329